Cəmiyyətin mənəvi dayağı missiyasını daşıyanlar

Dünyanın bütün sivil, mədəni xalqları qadınlara böyük dəyər verirlər. Azərbaycan xalqı da hər zaman analara, qız və gəlinlərə, bütün xanımlara böyük hörmət və ehtiram göstərib, onların şərəfini uca tutmağı bacarıb.

Qeyd etmək lazımdır ki, Azərbaycanda qadınlara qayğı və hörmət xalqımızın min illər boyu formalaşan milli-mənəvi, əxlaqi dəyərlərindən qaynaqlanır. Bu gözəl ənənə bu gün davam edir.

Azərbaycan dövlət müstəqilliyini bərpa edəndən sonra ulu öndər Heydər Əliyev milli dövlətçilik tariximizdə qadın siyasətinin əsasını qoymuşdur. 1998-ci ildə ümummilli liderin təşəbbüsü ilə Azərbaycan qadınlarının I qurultayı keçirilmişdir. Dahi siyasətçi qurultayda tarixi nitq söyləyərək fəxrlə demişdir ki, Azərbaycan qadınları ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak edərək, ölkəmizin hərtərəfli inkişafına, tərəqqisinə böyük töhfə verəcəklər.

Birinci qurultaydan iki il sonra, 2000-ci il martın 6-da ulu öndər "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" fərman imzalamışdır. Sənədin ilk bəndində göstərilirdi ki, Azərbaycan Respublikasının bütün dövlət qurumlarında fəaliyyət növü nəzərə alınmaqla, qadınların rəhbərlik səviyyəsində kişilərlə bərabər təmsil olunması təmin edilməlidir.

Təqdirəlayiq haldır ki, son illər ölkəmizdə qadınlara diqqət və qayğı daha da artmışdır. Prezident İlham Əliyev 2006-cı ildə Azərbaycanda dövlət qadın siyasətinin daha mütəşəkkil və ardıcıl şəkildə aparılması üçün Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılması məqsədilə sərəncam imzalamışdır. Elə həmin il Azərbaycan Respublikasının Milli Məclisi "Gender bərabərliyi haqqında" Qanun qəbul etmişdir. 2014-cü ildə isə ölkə Prezidentinin sərəncamı ilə "Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair (2014–2020-ci illər üçün) Dövlət Proqramı təsdiq edilmişdir.

Bu günlərdə Azərbaycan Prezidenti 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbrik məktubu ünvanlayıb. Orada deyilir: "Respublikamızda təşəbbüskar qadınlarımızın öz yaradıcı potensiallarını gerçəkləşdirmələri üçün əlverişli zəmin mövcuddur. Dövlətçiliyimizin əsaslarının möhkəmləndirilməsinə yönəlmiş fəaliyyətləri ilə onlar yeniləşən ölkəmizin ahəngdar yüksəlişinin təmin edilməsində əhəmiyyətli rol oynayırlar".

> ***Azərbaycan qadınları tariximizin hər bir dövründə cəmiyyətin mənəvi dayağı olmuşlar. Xalqımızın əsrlər boyu təşəkkül tapmış zəngin milli-mədəni sərvətlərinin hifz edilməsində və ali bəşəri keyfiyyətlərin nəsildən-nəslə ötürülməsində onların misilsiz xidmətləri vardır.***
>
> **İlham ƏLİYEV**
> **Azərbaycan Respublikasının Prezidenti**

Ölkəmizdə öz fəaliyyəti ilə seçilən qadınların sayı çoxdur. Azərbaycan qadınları istənilən sahədə uğur qazanmaqla yanaşı, gözəl ailə sahibi olmağı və Vətənə layiqli vətəndaşlar yetişdirməyi bacarırlar.

Azərbaycan qadınları hər zaman Prezident İlham Əliyevin və Birinci vitse–prezident Mehriban Əliyevanın diqqət və qayğısı ilə əhatə olunublar. Azərbaycanda da hər zaman qadının ailədə, işdə, həm də cəmiyyətdə layiqli yer tutması dövlətimiz üçün prioritetdir. Azərbaycan dövləti son illər qadınların layiqli işlə təmin olunmaları, onların və övladlarının sağlıq durumunun daim yaxşılaşdırılması, aztəminatlı ailələrin güzəranının yüksəldilməsi üçün düşünülmüş və ardıcıl işlər həyata keçirir. Ana və uşaqlara verilən müavinətlər ilbəil artırılır, körpələr və uşaqlı analar üçün nəzərdə tutulan imtiyazların həcmi mütəmadi olaraq artırılır.

Qadının cəmiyyətdə ən böyük missiyası sağlam, ağıllı, tərbiyəli övladlar tərbiyə edərək böyütməkdir. Taleyin qisməti ilə ata-analarını itirən uşaqlar da var. Bakının Yeni Günəşli qəsəbəsindəki 2 saylı uşaq evində məhz valideyn himayəsindən məhrum olmuş uşaqlar tərbiyə olurlar. Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva bu qəbildən olan digər müəssisələr kimi, həmin ünvanı da tez-tez ziyarət edir, hər bir uşağın qayğı və problemi ilə yaxından maraqlanır. Uzun illər həmin müəssisədə tərbiyəçi işləyən Zümrüd Yusifova deyir ki, Mehriban xanımın adı bu uşaqların dilindən bir an belə düşmür, onların çoxu ölkəmizin birinci xanımını özünə ana bilir.

Bu gün ölkəmizdə elmi, intellekti, kübarlığı ilə seçilən ziyalı xanımlarımız çoxdur. Onlardan biri– Azərbaycan Turizm və Menecment Universitetinin professoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru Minaxanım Əsədli ölkəmizdə qadınlara göstərilən diqqət və qayğıdan çox razılıq edir: "O cəmiyyət ki, qadına layiq olduğu dəyəri verir, onun ölkənin ictimai-siyasi həyatındakı fəaliyyəti üçün şərait yaradır belə toplumlar daha sürətlə inkişaf və tərəqqi edir.



Müstəqil Azərbaycanın son illər əldə etdiyi parlaq uğurlarda qadınlarımızın rolu böyükdür".

Bu gün 8 Mart Beynəlxalq Qadınlar Günüdür. Bu bayram sevgi, zəriflik, gözəllik rəmzi olan qadınların bayramıdır. Qoy hər bir ana bu gün bir daha balasından "Sən ən yaxşı anasan!" sözlərini eşitsin. Qoy hər bir Azərbaycan gənci saf, ülvi məhəbbətlə sevdiyi qıza onun layiq olduğu böyük sevgini bəxş etsin! Qoy mərd, igid oğullarımız doğma torpaqlarımızdan düşməni qovub, narahat şəhid ruhlarını və onların fədakar analarını sevindirsinlər! Axı bütün qadınlar bu böyük sevgiyə, qayğıya layiqdirlər.

Azərbaycan qadını gözəl, ismətli olduğu kimi, ağıllı, işgüzar və kreativdir. O, Azərbaycanın tərəqqi və intibahında fəal iştirak etməyi özünün vətəndaşlıq borcu sayır və bundan haqlı olaraq böyük qürur duyur.

M.ABDULLAYEV,
"Xalq qəzeti"